# Tarixin ən qanlı qətliamı– Xocalı soyqırımı

## Xocalı soyqırımı ilə bağlı anım tədbiri

FHN Şimal-qərb Regional Mərkəzində Xocalı soyqırımının 28-ci ildönümü ilə bağlı anım tədbiri keçirilib.



Mərasimdə soyqırım qurbanlarının, həmçinin xalqımızın azadlığı və vətənimizin müdafiəsi uğrunda şəhid olmuş həmvətənlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Çıxış edən natiqlər ermənilərin ərazi iddiaları və soyqırımı siyasətindən bəhs edərək onların tarix boyu Azərbaycan xalqına, həmçinin bütün türk dünyasına qarşı etnik təmizləmə siyasəti apardıqlarını bildiriblər.

Tədbirin sonunda Xocalı soyqırımı haqqında videoçarx nümayiş olunub.

**FHN Şimal-qərb Regional Mərkəzinin maarifləndirmə sektoru.**

## Erməni vəhşiliyinin qurbanı–Xocalı

Rayon mərkəzi xəstəxanasında Xocalı soyqırımına həsr olunmuş tədbir keçirilmişdir. Mərasimdə Xocalı soyqırımı qurbanlarının xatirəsi bir dəqiqəlik sükutla yad edilmişdir.

Mərkəzi xəstəxana publik hüquqi şəxsin direktoru Sabir Bayramov mərasimdə Xocalı soyqırımının başvermə səbəbləri və nəticələri haqqında geniş məlumat vermişdir.



Həkimlərdən Şirin Müştaqov, Cavanşır Məlikov və başqaları çıxışlarında Xocalı soyqırımını ermənilərin tarix boyu azərbaycanlılara qarşı törətdikləri məkrli planların ən dəhşətlisi kimi qiymətləndirmişlər.

**Rəsul HACIYEV,**
**xəstəxananın həkimi.**

## Unutmayacağıq

Şəhid Pərviz Osmanovun adını daşıyan şəhər 2 nömrəli tam orta məktəbində Xocalı soyqırımının 28-ci ildönümünə həsr olunmuş tədbir keçirilmişdir.

Tədbirdə Xocalı faciəsini əks etdirən videoçarx nümayiş etdirilmişdir.

Sonra məktəbin şagirdləri və hazırlıq sinfinin körpə fidanları Xocalı faciəsinə aid şeirlər səsləndirmiş, səhnəciklər göstərmişlər. Məktəbin hazırlıq qrupunun uşaqları Xocalıda uşaqlıq arzuları ürəklərində qalan körpələrin çəkdikləri əzabları şeirlər ilə dilə gətirmişlər.

Şagirdlər Azərbaycanın Milli Qəhrəmanı Əlif Hacıyevin həmin gecə necə qəhrəmanlıq göstərdiyini və şəhid olduğunu səhnələşdirərək tədbir iştirakçılarına nümayiş etdiriblər.

Rayon təhsil şöbəsinin müdiri Arifə Bayramova çıxışında Xocalı soyqırımı haqqında geniş məlumat vermiş, gənc nəslə bu qanlı faciəni heç vaxt unutmamağı tövsiyə etmişdir.

**Təhminə MİRZƏLİYEVA,**
**məktəbin müəllimi.**

## Peşə təhsil mərkəzində

Qəbələ Dövlət Peşə Təhsil Mərkəzində 28 il əvvəl erməni qaniçənlərinin Xocalı şəhərində həyata keçirdiyi soyqırımına həsr olunmuş tədbir təşkil olunmuşdur. Tədbirdə Xocalıda ermənilərin azərbaycanlılara qarşı törətdikləri misli görünməmiş vəhşilik barədə tədbir iştirakçılarına məlumat vermişdir.

Mərkəzin direktoru Namiq Muradov Xocalı soyqırımının Azərbaycan tarixinin ən dəhşətli səhifələrindən biri olduğunu bildirmiş, soyqırımına hüquqi-siyasi qiymətin ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə verildiyini qeyd etmişdir.

Mərasimdə tələbələrin ifasında Xocalı soyqırımına həsr olunmuş kompozisiya və "Fəryad" bədii filmi nümayiş etdirilmişdir.

**Mabud ƏZİMOV,**
**mərkəzin müəllimi.**

## XX əsrin ən qanlı faciəsi

Turizm və otelçilik üzrə peşə tədris mərkəzində Xocalı soyqırımının 28-ci ildönümünə həsr olunmuş anım mərasimi keçirilib.

Tədbir iştirakçıları əvvəlcə Xocalı faciəsində şəhid olmuş soydaşlarımızın xatirəsini bir dəqiqəlik sükutla yad ediblər.

Mərasimdə 1992-ci fevralın 25-dən 26-sına keçən gecə törədilən Xocalı soyqırımının ermənilərin uzun illərdən bəri azərbaycanlılara qarşı törətdikləri cinayətlərin ən dəhşətlisi olduğu bildirilib.

Anım tədbirində mərkəzin tələbələri Xocalı soyqırımına həsr olunmuş şeirlər söyləyiblər.

**Hökumə EYVAZOVA,**
**mərkəzin müəllimi**

## Xocalıya həsr olunub

Təbriz Yaqubov adına Bum qəsəbə tam orta məktəbində Xocalı soyqırımının 28-ci ildönümünə həsr edilmiş tədbir keçirilib.

Toplantını məktəbin müəllimi Azadə Hacıyeva açdıqdan sonra şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Məktəbin tarix müəllimi Mamilə İsrəfilova Xocalı soyqırımı haqqında tədbir iştirakçılarına ətraflı məlumat verib.

Şagirdlərdən Nazlı Ədilova, Nəzrin Ələmmədova, Günay Abdullayeva, Nurcan Şükürlü, Zəhra Yolçuyeva, Lalə İsmayılova, Fuad Ələmmədov, Xalid Xalidli, Almaz Dadaşova, Elnurə Quliyeva və başqaları Xocalıya aid şeirlər səsləndirmişlər.

Sonda şagirdlərin ifasında ədəbi-bədii kompozisiya göstərilmişdir.

**Emin BARATOĞLU,**
**AJB-nin üzvü,**
**"Qəbələ" nin müxbir psotunun rəhbəri.**

## Xocalı soyqırımı anılıb

Qəbələ Müalicə Diaqnostika Mərkəzində Xocalı soyqırımının 28-ci ildönümünə həsr olunmuş toplantı keçirilib.



Tədbirdə torpaqlarımızın ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Tədbirdə mərkəzin baş həkimi Ceyhun Əhmədov, baş həkimin müavini Xocalı sakini Kamal Məmmədov çıxış edərək XX əsrin ən qanlı qətliamı olan Xocalı soyqırımının təfərrüatlarından söhbət açıblar.

Qeyd olunub ki, 1993-cü ildə xalqın təkidi ilə yenidən Azərbaycana hakimiyyətə qayıdan ümummilli lider Heydər Əliyev daxili sabitliyin təmin olunması, siyasi, iqtisadi tənəzzülün qarşısının alınması istiqamətində fəaliyyətə başladı. 1994-cü ildə atəşkəsə nail olundu. Ulu öndərin hələ prezident səlahiyyətlərini həyata keçirərkən erməni təcavüzünün qarşısının alınması məqsədilə təcili tədbirlər görülməsi üçün 26 iyul 1993-cü il tarixdə BMT Təhlükəsizlik Şurasının iclasının dərhal çağırılması tələbi ilə Təhlükəsizlik Şurasının sədrinə müraciət etdiyi bildirilib.

Milli Məclisin 24 fevral 1994-cü il tarixli qərarı ilə hər il fevral ayının 26-sı tarixinin "Xocalı Soyqırımı Günü" kimi qeyd olunması və Xosalı soyqırımına hüquqi-siyasi qiymət verilməsi ulu öndər Heydər Əliyevin xidmətlərindəndir.

Diqqətə çatdırılıb ki, bu gün Prezident İlham Əliyevin uğurlu diplomatiyası sayəsində artıq dünya ictimaiyyəti Ermənistanı terrorçu və işğalçı dövlət kimi tanıyır.

Sonda natiqlər bu cür hadisələrdən ibrət götürərək müstəqilliyimizin və ərazi bütövlüyümüzün qorunmasının ən müqəddəs məqsəd olduğunu ifadə ediblər.

**İlham SEYİDOV,**
**mərkəzin işçisi.**

### *"Qəbələ"nin poçtundan*

## Bu tarixi faciə unudulmayacaq

***Ermənilərin Azərbaycanın əzəli torpağı olan Dağlıq Qarabağın Xocalı şəhərində azərbaycanlılara qarşı törətdikləri soyqırımdan 28 il keçir. Bu qanlı faciənin ildönümü ilə əlaqədar Qəbələ Rayon Təhsil Şöbəsində tədbirlər planı hazırlanmışdır.***

Tədbirlər planına uyğun olaraq Bunud kənd tam orta məktəbində keçirilən "Dəyirmi masa"da məktəbin tarix müəllimi Ülfət Əzizov geniş məruzə etmiş Xocalıda törədilmiş soyqırımını bəşəriyyətə qarşı yönəlmiş ağır cinayət kimi qiymətləndirmişdir.

Zarağan kənd 2 nömrəli tam orta məktəbin X sinifində tarix müəllimi Elməddin Məmmədovun Xocalı faciəsinə həsr olunmuş "Açıq dərs"i keçirilmişdir.

Vəndam qəsəbə 1 nömrəli tam orta məktəbində də Xocalı faciəsinə həsr olunmuş tədbir keçirilmişdir. Tədbirdə şagirdlərin ifasında Xocalı faciəsinə həsr olunmuş kompozisiya nümayiş olunmuş, video-çarx göstərilmişdir.

Heydər Əliyev Mərkəzinin əməkdaşları Qəbələ şəhər 4 nömrəli tam orta məktəbində Xocalı soyqırımının 28-ci ildönümü ilə əlaqədar mühazirə oxumuşlar.

Mirzəbəyli kənd tam orta məktəbində Xocalı faciəsinə həsr olunmuş şahmat yarışı keçirilmişdir.

Rayonun bütün ümumtəhsil məktəblərində və məkdəbdənkənar təşkilatlarında Xocalı faciəsinə həsr olunmuş müxtəlif tədbirlər keçirilmişdir.

Ümumtəhsil məktəblərində keçirilən Xocalı faciəsinə həsr olunmuş tədbirlərdə rayon təhsil şöbəsinin müdiri Arifə Bayramova və təhsil şöbəsinin digər əməkdaşları iştirak etmişlər.

**"Qəbələ"**